**Bəzi insanlar yaşadığı dövrə nur saçır. Dahi yalnız ağlı və savadı ilə deyil, həm də vicdanı və fədakarlığı ilə çevrəsindəki hər kəsin yolunu aydınladır. Bu cür insanlar təkcə özləri üçün yaşamırlar, onların xidməti millətin ürəyində döyünür, addımları ilə vətənin taleyinə yön verirlər. Mustafa Topçubaşov bir xalqın ağrısını hiss edən, onun sabahı naminə gecəni gündüzə qatan, adını tarixə yazdıran şəxsiyyət idi. Onun mənalı həyatı barlı bir ağac kimi, kökü elmdə, gövdəsi zəhmətdə, budaqları isə insanlığa xidmətlə ucalırdı. Azərbaycan tibbi elminin inkişafına dəstək verən görkəmli cərrah-alim, ictimai və dövlət xadimi Mustafa Ağabəy oğlu Topçubaşovun adı ölkəmizin elmi-mədəni tarixinə qızıl hərflərlə həkk olunmuşdur. Peşəkar həkim və novator cərrah milli təbabətin inkişafında, elmi idarəçilikdə və ictimai həyatın müxtəlif sahələrində dərin iz qoyub.**

# Təbabətin filosofu, həm də bəstəkarı

Sovet dövründə azad söz deyə bilmək hər adama nəsib olmayan cəsarət idi. Mustafa bəy isə gəncliyindən xalqının mənafeyini hər şeydən üstün tutur, ehtiyac duyulan hər məqamda fikrini qətiyyətlə ifadə edirdi. Bu səbəbdəndir ki, təhlükəsizlik orqanları onu tez-tez istintaq otaqlarında sual yağışına tuturdular. Bir dəfə ondan soruşurlar: "Siz Əlimərdan bəy Topçubaşovla qohumsunuz?" Mustafa bəy qürurla cavab verir: "Yəqin ki, qohumuq, amma şəxsən tanımıram".

Bu söz-söhbətlər, təzyiqlər Azərbaycanın rəhbəri Mircəfər Bağırovun da diqqətindən yayınmır və mövqeyi qəti olur: "Bizim bircə Topçubaşovumuz var. Onu rahat buraxın". Bu bir cümlə siyasi təqib axtaranlara sərt xəbərdarlıq olur. Mustafa Topçubaşov Qərbi Azərbaycanda azərbaycanlılara edilən zülmlərin şahidi olaraq böyümüşdü. Ailəsinin faciəsini isə heç vaxt unutmamışdı, hüquqşünas olan qardaşı Rza ermənilər tərəfindən qətlə yetirilmişdi. Bu acı hadisə onu daim ermənipərəst təbliğata qarşı sərt mövqe tutmağa vadar etmişdi. Həqiqəti dediyinə görə ona "millətçi" damğası vursalar da, Mustafa bəy yolundan dönməmişdi.

1980-ci illərdə Mustafa bəyin fəaliyyətindən narazı olanlar vardı. Onun kafedra müdirliyindən uzaqlaşdırılmasını istəyənlər Mərkəzi Komitəyə şikayət məktubları ünvanlayırlar: "Topçubaşov artıq qocalıb, istefaya getsin, kafedra müdirliyini başqa bir adama təhvil versin". Amma bu cəhdlər də boşa çıxır. Respublika rəhbəri Heydər Əliyev həmin müraciətlərə belə cavab verir: "Dediyiniz o qanun-qaydalar Mustafa bəy Topçubaşova aid deyil. O, elə bir insandır ki, o, elə bir fədakar adamdır ki, həyatının, yaşının son dəqiqəsinə qədər göstərdiyi fəaliyyət bizim üçün gərəkli və əhəmiyyətlidir".

Mustafa bəyin iç dünyası da çox zəngin idi. Musiqiyə bu maraq onu böyük bəstəkar Üzeyir Hacıbəyli ilə yaxınlaşdırır. İki böyük insanın dostluğu illərlə davam edir. Deyilənə görə, Üzeyir bəyin məsləhəti ilə Mustafa bəy bəzi əməliyyatlarını klassik musiqi sədaları altında aparırmış. Bu səbəbdəndir ki, filosof Heydər Hüseynov onu "təbabətin filosofu", Üzeyir bəy isə "təbabətin bəstəkarı" adlandırırdı. Mustafa bəyin özü isə musiqi və təbabət arasındakı bağlılığı barədə belə demişdi: "Təbabət və musiqi bir-birilə qırılmaz tellərlə bağlıdır və bir zaman gələcək ki, bir çox dərmanları musiqiylə əvəz edib insanları müalicə edəcəklər".

İkinci Dünya müharibəsindəki fədakarlığına görə o, bir sıra yüksək dövlət mükafatları ilə təltif edilmişdir: "Qızıl Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" kimi medallar, onun həm peşə, həm də vətən qarşısında xidmətlərinin simvoluna çevrilmişdir. M.Topçubaşov həm də elmi təşkilatçı və idarəçi kimi Azərbaycan elminin təməl sütunlarından biri olmuşdur. 1945-ci ildə yaradılmış Azərbaycan Elmlər Akademiyasının ilk 15 üzvündən biri kimi tarixə düşən Topçubaşov, eyni zamanda 1947-1949-cu illərdə Eksperimental Tibb İnstitutuna rəhbərlik etmişdir. 1951-ci ildən ömrünün sonunadək Azərbaycan Elmlər Akademiyası prezidentinin müavini kimi fəaliyyət göstərmiş və elmi idarəçilik sahəsində böyük uğurlara imza atmışdır. O, həmçinin 1949-cu ildə SSRİ Tibb Akademiyasının müxbir üzvü, 1960-cı ildə isə həqiqi üzvü seçilərək ittifaq səviyyəsində tanınan nüfuzlu akademiklərdən biri olmuşdur. 1950-ci ildən ömrünün sonuna kimi Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri vəzifəsində çalışmışdır. Bu xətlə dünyanın bir çox ölkələrində - Livan, BƏƏ, Bolqarıstan, Avstriyada Azərbaycanı layiqincə təmsil etmişdir.



Tarix bir çox haqsızlıqların səssiz şahididir. Bəzən elə olur ki, xalqın içindən çıxan dəyərli bir şəxsiyyət öz elmi, əxlaqi və mənəvi böyüklüyü ilə dünya miqyaslı təltiflərə layiq görülür, lakin geosiyasi oyunlar, qərəzli yanaşmalar, hətta şəxsi ambisiyalar onun qarşısını kəsir. Akademik Mustafa Topçubaşovun həyatında da belə bir məqam olmuşdu. Mustafa Topçubaşov keçmiş SSRİ məkanında misilsiz nüfuza malik idi. Sosialist Əməyi Qəhrəmanı fəxri adı, 4 dəfə Lenin ordeni, bir çox orden və medallar onun fəaliyyətinə verilən yüksək qiymət idi. Lakin onun elmi uğurlarının hüdudları SSRİ ilə məhdudlaşmırdı, analgeziya sahəsində gətirdiyi yenilik, inyeksion efir-yağ narkozunun dünya miqyasında tətbiqi tibbin sərhədlərini aşan inqilab idi. 1977-ci il... Həmin il Nobel Komitəsi tərəfindən Mustafa Topçubaşov və professor Qurban Qəhrəmanova rəsmi məktub ünvanlandı. Onlardan analgeziya və "Qəhrəmanov metodu" ilə bağlı tədqiqatlarının sənədləri, elmi əsaslandırmalar və klinik nəticələr istənildi. Qısa müddətdə bütün materiallar rus və ingilis dillərində tərcümə edilərək təqdim olundu. Ümidlər böyük idi, çünki ortada həm elmi yenilik, həm də beynəlxalq tibbi praktikada tətbiq edilən metodlar vardı. Hər iki alim Nobel mükafatına real namizəd idilər. Amma bu yol heç də hamar deyildi. Sovet sisteminin daxili mexanizmləri və milli ayrı-seçkilik ruhu yenidən işə düşdü. Elə həmin dövrdə, qəribə şəkildə Moskva mətbuatında Nobel mükafatı əleyhinə geniş kampaniya başlandı. Nobel ailəsi Bakı neftini istismar etməkdə ittiham olundu. Bildirildi ki, Nobel mükafatı burjua ideologiyasının alətinə çevrilib. Bu qəfil dəyişiklik, əslində, birbaşa Mustafa bəyə yönəlmiş informasiya hücumu idi. Səbəb bəlli idi. Moskvanın ermənipərəst media dairələri üçün nə Azərbaycan aliminin beynəlxalq mükafata layiq görülməsi, nə də ölkəmizin adı ilə bağlı bir uğurun tanınması qəbul ediləsi deyildi. Onlar Topçubaşovun elmi nüfuzunu gözdən salmaq üçün hər vasitəyə əl atdılar. Nəticədə, Nobel Komitəsinin ilkin müsbət reaksiyası boşa çıxdı. Həmin il tibb üzrə Nobel mükafatı ümumiyyətlə heç kimə verilmədi...

Sonralar məlum oldu ki, bu kampaniyanın arxasında Moskva mətbuatında möhkəmlənmiş ermənilər dayanırmış. Onlar Nobelə təqdim olunmuş sənədlərin əleyhinə təbliğat aparmaqla yanaşı, həm də SSRİ rəhbərliyinin milli zəmində qıcıqlarını qabartmışdılar. Beləliklə, elmin önünə siyasi sipər çəkilmiş, Mustafa Topçubaşovun adı Nobel mükafatçıları siyahısına düşə bilməmişdi. Nobel mükafatı ala bilməsə də Mustafa Topçubaşov bu zirvəni çoxdan fəth etmişdi.

Mustafa Topçubaşov 200-dən çox elmi məqalə, 8 monoqrafiya və çoxsaylı elmi topluların müəllifi olmuşdur. Xüsusilə, müəllifi olduğu Azərbaycan dilində 110 çap vərəqi həcmində hazırlanan 5 cildlik cərrahlığa dair dərslik ümumrespublika səhiyyəsi üçün də unikal vəsait sayılır. Bu dərslik Azərbaycan dilində cərrahiyyə təhsili alan həkimlər üçün fundamental bilik qaynağına çevrilmiş, onillərlə tibb fakültələrində əsas dərs vəsaiti kimi istifadə edilir. Mustafa bəyin cərrahiyyə sahəsindəki fəaliyyəti tibb tarixində misilsiz nailiyyətlərlə yadda qalıb. O, 62 illik əmək fəaliyyəti dövründə təxminən 100 minə yaxın uğurlu cərrahiyyə əməliyyatı həyata keçirmiş, on minlərlə insanın həyatını, taleyini dəyişdirmişdir. Ən mühüm nailiyyətlərindən biri də onun elmi məktəb yaratmasıdır.

Azərbaycan tibb elmi tarixində Mustafa Topçubaşov bütöv bir epoxanın siması, cərrahlıq elminin banilərindən biri, səhiyyə təşkilatçısı və ziyalı-vətəndaş nümunəsidir. Ümummilli lider Heydər Əliyev sovet dövründən Mustafa Topçubaşovun elmi fəaliyyətinə böyük dəstək göstərmiş, onun Azərbaycanın tibb və elm tarixindəki rolunu xüsusilə vurğulamışdır. 1995-ci ildə Mustafa Topçubaşovun anadan olmasının 100 illiyi münasibətilə təşkil olunmuş yubiley mərasimində Heydər Əliyevin çıxışı böyük təbibə və ziyalıya göstərilən yüksək ehtiramın ən bariz nümunəsidir. Həmin çıxışda Ulu Öndər demişdir: "Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyi Azərbaycan xalqının elminin, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin bayramıdır. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Mustafa bəy Topçubaşovun davamçılarına, bütün Azərbaycan xalqına və vətəndaşlarına elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafında uğurlar arzulayıram. Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır...

Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulubdu. Onun ziyalılığı təkcə elmində yox, xasiyyətində, davranışında, insanlara münasibətində idi... Xatirimdədir, bir dəfə bir nəfər mənim yanıma gəlib dedi ki, Mustafa bəy Topçubaşov akademiyada özünü elə aparır ki, elə bil heç vitse-prezident deyildir. Mən dedim, nə olubdur ki? O dedi ki, Mustafa bəy Topçubaşov akademiyanın bufetində oturur, hamı ilə birlikdə yemək yeyir. Dedim, burada nə var ki?.. Demək, insanlar başqa cür də düşünürlər. Bu, onun alicənablığının, ziyalılığının parlaq təzahürüdür. İnsanlar var ki, bir xırda vəzifə tutan kimi ya evində, ya da dövlət işində özlərinə xüsusi xidmət tələb edirlər... Lakin xalqına bu qədər xidmət etmiş adam, həmin o Elmlər Akademiyasının bünövrəsini qoyanlardan biri bu cür təvazökar həyat keçirirdi".

Bugünkü Azərbaycan səhiyyəsinin, tibb təhsilinin və cərrahiyyə elminin dayaqları üzərində Mustafa bəy Topçubaşovun silinməz izləri var. Onun fəaliyyətinin dəyər verən ölkə başçımız İlham Əliyev akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında iyunun 10-da Sərəncam imzalayıb.

M.Topçubaşovun yetirmələri bu gün ölkənin və dünyanın müxtəlif yerlərində uğurla fəaliyyət göstərirlər. Elmi əsərləri hələ də tibb fakültələrində öyrənilir, xatirəsi üçün adlandırılan tibb müəssisələri onun irsini yaşadır. Bu gün ölkəmizdə onun adını daşıyan tibb müəssisələri, elmi fondlar, küçə və məktəblər xatirəsinin xalqın yaddaşında yaşadığını göstərir. Ancaq ən böyük abidə onun yetişdirdiyi həkimlər nəsli və qurduğu elmi məktəbdir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**